Azərbaycan Respublikası
Sahibkarlığın İnkişafı Fondunun
Müşahidə Şurasının
“8” may 2021-ci il tarixli
04 nömrəli Qərarı ilə (Protokol № 04)
edilmiş dəyişikliklərlə
**Təsdiq edilmişdir**

# İnvestisiya layihələrinin tərtib edilməsinə dair

# M İ N İ M A L T Ə L Ə B L Ə R

**Mündəricat**


1. Titul vərəqi ..... 3
2. İnvestisiya layihəsinin xülasəsi ..... 4
3. Sahibkarlıq subyekti haqqında məlumat ..... 5
4. İnvestisiya layihəsinin məqsədi ..... 7
5. Təşkilati plan ..... 8
6. İstehsalı nəzərdə tutulan məhsulun (iş və xidmətin) xarakteristikası ..... 9
7. Bazarın xarakteristikası ..... 10
8. İstehsal planı ..... 11
9. Kreditə olan tələbat və onun ödənmə qrafiki ..... 12
10. Maliyyə Planı ..... 13
11. İnvestisiya layihəsinin səmərəliliyinin qiymətləndirilməsi ..... 16
12. Risklərin qiymətləndirilməsi ..... 19

## 1. Titul vərəqi

İnvestisiya layihəsinin tərtib edilməsi titul vərəqindən başlayır. Titul vərəqi üzrə verilən məlumatlar investisiya layihəsinin birinci bölməsində əks olunur və əsasən sahibkarlıq subyekti və onun təqdim etdiyi investisiya layihəsi ilə bağlı ilkin tanışlığı əks etdirir.

Titul vərəqində aşağıdakı məlumatlar əks olunmalıdır:

1. Sahibkarlıq subyekti;
- Adı;
- Hüquqi ünvanı;
- Fəaliyyət ünvanı (layihənin həyata keçiriləcəyi yer);
2. Payçı və səhmdar (payçılar və səhmdarlar);
- Adı (adları);
- Ünvanı (ünvanları);
3. Rəhbər (rəhbərlər);
- Adı (adları);
- Vəzifəsi (vəzifələri);
- Ünvanı (ünvanları);
4. Təşkilati-hüquqi forması;
5. Mülkiyyət forması;
6. Sahibkarlıq subyektinin dövlət orqanlarında qeydiyyat rekvizitləri;
7. Bank rekvizitləri;
8. İnvestisiya layihəsinə dair məlumatlar;
- İnvestisiya layihəsinin mahiyyəti;
- İnvestisiya layihəsinin ümumi dəyəri (o cümlədən, kredit);
- Kreditin illik faiz dərəcəsi;
- İnvestisiya layihəsinin icra müddəti.
9. İnvestisiya layihəsinin tərtib edilmə yeri, tarixi və layihəni tərtib edənin (fiziki və hüquqi şəxsin) rekvizitləri.

## 2. İnvestisiya layihəsinin xülasəsi

İnvestisiya layihəsinin xülasəsi layihənin başlıca məqsədini və məzmununu ifadə etməklə özündə sahibkarlıq subyektinə dair müvafiq məlumatları - onun kreditə olan ehtiyacı, investisiya layihəsi üzrə istehsalı nəzərdə tutulan məhsullar (iş və xidmətlər) və bu məhsullara (iş və xidmətlərə) olan tələbatları, investisiya layihəsinin nəticələri ilə bağlı proqnozları və s. əks etdirir. Xülasə investisiya layihəsi hazırlandıqdan və layihə üzrə bütün tələblər icra edilməklə layihənin müvafiq müddəalarının ardıcıllıqla qısa, dəqiq və səlis yazılması ilə şərtlənir.

İnvestisiya layihəsinin xülasəsində aşağıdakı məlumatlar əks olunmalıdır:

1. Sahibkarlıq subyekti haqqında qısa məlumat;
2. Maliyyələşmə mənbələri, həcmi və təyinatı;
3. İnvestisiya layihəsi üzrə nəzərdə tutulan işlərin yerinə yetirilmə ardıcıllığının qrafiki;
4. PESTEL analizi (Siyasi, iqtisadi, sosial, texnoloji, ətraf mühit, hüquqi).[1]
5. İstehsalı nəzərdə tutulan məhsulun (iş və xidmətin) satış bazarı haqqında qısa məlumat;
6. İnvestisiya layihəsinin reallaşdırılmasının nəticələrinə dair iqtisadi səmərəlilik göstəriciləri (Daxili rentabellik norması (IRR), Borc öhdəliyinin qarşılanması əmsalı (DSCR), Faiz xərcinin qarşılanması əmsalı (ICR), diskontlaşdırılmış gəlir (PV), xalis cari dəyər (NPV), investisiyanın özünü ödəmə müddəti (PBP) və investisiyanın diskontlaşdırılmış özünü ödəmə müddəti (DPBP).[2]

[1] *Böyük həcmli (1 milyon manatdan yuxarı) güzəştli kreditlərə tələb olunur.*

[2] *Kiçik həcmli (50 min manata qədər) güzəştli kreditlərə tələb olunmur.*

## 3. Sahibkarlıq subyekti haqqında məlumat

İnvestisiya layihəsinin bu bölməsində Sahibkarlığın İnkişafı Fondunun sahibkarlıq subyekti haqqında ətraflı məlumatlandırılması üçün onun biznesinin təşkili və potensial üstünlükləri, investisiya layihəsinin reallaşdırılması ilə bağlı mövcud imkanlarının səviyyəsi və s. bu kimi məlumatların şərh edilməsi zəruridir. Sahibkarlıq subyektinə dair məlumatlar aşağıdakı ardıcıllıqla əks etdirilməlidir:

1. Sahibkarlıq subyektinin fəaliyyəti və biznes tarixi, o cümlədən sahibkarlıq subyektinin son 3 ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, həmin müddətdə) gəlir və xərcləri haqqında məlumatlar[3]

*(manatla)*

| **S\s** | **Göstəricilər** | **Layihənin illəri** | | |
|---|---|---|---|---|
| | | ***1*** | ***2*** | ***3*** |
| **1.** | **Satışdan daxilolmalar (vergisiz)** | | | |
| **2.** | **Birbaşa xərclər** | | | |
| **3.** | **Ümumi mənfəət (1-2)** | | | |
| **4.** | **Digər gəlirlər** | | | |
| **5.** | **İnzibati xərclər** | | | |
| 5.1 | Əmək haqqı xərcləri | | | |
| 5.2 | DSMF ayırmaları | | | |
| 5.3 | Bank xidmət haqqı | | | |
| 5.4 | Amortizasiya ayırmaları | | | |
| 5.5 | Təmir-bərpa xərcləri | | | |
| 5.6 | Sığorta xərcləri | | | |
| 5.7 | Kommunal xərclər | | | |
| 5.8 | İcarə haqqı | | | |
| 5.9 | Rabitə xərcləri | | | |
| 5.10 | Nəqliyyat xərcləri | | | |
| 5.11 | Əmlak vergisi | | | |
| 5.12 | Torpaq vergisi | | | |
| 5.13 | Digər xərclər | | | |
| **6.** | **Satış xərcləri** | | | |
| 6.1 | Reklam və marketinq xərcləri | | | |
| 6.2 | Ezamiyyə xərcləri | | | |

[3] *Kiçik həcmli (50 min manata qədər) güzəştli kreditlərə tələb olunmur.*

| | | | | |
|---|---|---|---|---|
| 6.3 | Digər xərclər | | | |
| **7.** | **Sair xərclər** | | | |
| **8.** | **Kredit üzrə faiz məbləği** | | | |
| **9.** | **Vergiyə cəlb olunan məbləğ (3+4-5-6-7-8)** | | | |
| **10.** | **Vergi məbləği** | | | |
| **11.** | **Xalis mənfəət (9-10)** | | | |

2. Sahibkarlıq subyektinin mövcud maliyyə vəziyyətinə dair məlumatlar

*(manatla)*

| **Aktivlər** | **Məbləğ** | **Kapital və öhdəliklər** | **Məbləğ** |
|---|---|---|---|
| **Uzunmüddətli aktivlər** | | **Kapital** | |
| Əmlak və texnikalar | | Nizamnamə kapitalı | |
| Qurğu və avadanlıqlar | | Əlavə olunmuş kapital | |
| Digər uzunmüddətli aktivlər | | Bölüşdürülməmiş mənfəət | |
| **Qısamüddətli aktivlər** | | | |
| Xammal və mal-material | | **Öhdəliklər** | |
| Hazır məhsul | | Uzunmüddətli kreditor borcları | |
| Debitor borcları | | Digər uzunmüddətli borclar | |
| Nağd pul | | Qısamüddətli kreditor borcları | |
| Digər aktivlər | | Digər qısamüddətli borclar | |
| **Aktivlərin cəmi** | | **Kapital və öhdəliklərin cəmi** | |

3. Mövcud fəaliyyəti;
4. Mövcud istehsal infrastrukturu və maddi-texniki təchizatı;
5. Təşkilati struktur, işçi heyəti və kadrların ixtisası;
6. İnvestisiya layihəsinin reallaşdırılmasının əhəmiyyəti.

## 4. İnvestisiya layihəsinin məqsədi

İnvestisiya layihəsinin məqsədinin verildiyi bölmə sahibkarlıq subyekti tərəfindən investisiyanın niyyətinin müfəssəl olaraq şərh edilməsindən ibarətdir.

Bölmədə aşağıdakı məlumatlar öz əksini tapmalıdır:

1. İnvestisiya layihəsi üzrə alınması nəzərdə tutulan əsas və dövriyyə vəsaitlərinə (maşın və mexanizmlər, avadanlıqlar, nəqliyyat vasitələri, xammal və materiallar) dair müfəssəl məlumatlar;[4]
2. İnvestisiya layihəsi üzrə nəzərdə tutulan təmir-tikinti və quraşdırma işlərinə dair müfəssəl məlumatlar;[4]
3. İstehlakçı tələbatlarının ödənilməsi;
4. Mənfəətin təmin edilməsi;
5. Mərhələlər üzrə yeni iş yerlərinin yaradılması.

[4] *Alınması nəzərdə tutulan əsas və dövriyyə vəsaitlərinin adı, markası, texniki-iqtisadi göstəriciləri, istehsalçı müəssisə və alınma mənbəyi, eləcə də təmir-tikinti və quraşdırma işlərinə nəzərdə tutulmuş vəsaitin açıqlaması dəqiq göstərilməlidir.*

## 5. Təşkilati plan

İnvestisiya layihəsinin təşkilati planı ilk növbədə layihə üzrə görüləcək işlərin ardıcıllığını, reallaşdırılma mərhələlərini və digər mühüm təşkilati prosesləri özündə əks etdirməlidir. Təşkilati planın hazırlanması aşağıdakı ardıcıllıqla aparılmalıdır:

1. İnvestisiya layihəsi üzrə nəzərdə tutulan əsas işlərin mərhələləri;
2. Görüləcək işlərin yerinə yetirilməsi ardıcıllığı qrafiki.

## 6. İstehsalı nəzərdə tutulan məhsulun (iş və xidmətin) xarakteristikası

Sahibkarlıq subyekti tərəfindən istehsalı nəzərdə tutulan məhsul (iş və xidmət) barədə məlumatların verilməsi investisiya layihəsinin mühüm tərkib hissələrindən biridir. Bu məhsulun (iş və xidmətin) seçilməsi sahibkarlıq subyektinin biznes fəaliyyətinin perspektivini müəyyən etməklə, investisiya layihəsinin hazırlanmasında böyük əhəmiyyət kəsb edir. Başqa sözlə, sahibkarlıq subyekti üçün məhsulun (iş və xidmətin) düzgün seçilməsi investisiya layihəsinin prioriteti hesab edilir.

Bu bölmədə aşağıdakı məlumatlar əks olunmalıdır:

1. Məhsulun (iş və xidmətin) xarakteristikası;
   - Məhsulun (iş və xidmətin) adı;
   - Məhsulun (iş və xidmətin) keyfiyyət üstünlükləri;
   - Qablaşdırma və dizayn.
2. Texnoloji proses (istehsal texnologiyası);
3. Məhsulun (iş və xidmətin) analoji məhsullardan əsas üstünlükləri;
4. Məhsulun idxalı əvəz edən və ya ixrac yönümlü olmasına dair məlumat.

## 7. Bazarın xarakteristikası

Sahibkarlıq subyekti tərəfindən investisiya layihəsinin səmərəli həyata keçirilməsinin başlıca şərti istehsalı nəzərdə tutulmuş məhsulun (iş və xidmətin) satış bazarının öyrənilməsi və satışın reallaşdırılması ilə bağlı məqsədyönlü fəaliyyətin təşkilidir. Layihə üzrə məhsul (iş və xidmət) növünün düzgün seçilməsi və onun satış bazarının mənimsənilməsi layihənin uğurlu reallaşdırılmasından xəbər verir.

Bu bölmə üzrə aşağıdakı məlumatlar verilməlidir:

1. İstehsalı nəzərdə tutulmuş məhsulun potensial satış bazarı;
2. Məhsulun (iş və xidmətin) potensial istehlakçıları;
3. Rəqabət mühitinin təhlili (Porterin 5 güc təhlili);[5]
4. Satışın, reklam işinin təşkili və satışın təşviqi (servisin təşkili);[6]
5. Qiymət siyasəti (qiymətlərin əsaslandırılması).[7]

---

[5] *Böyük həcmli (1 milyon manatdan yuxarı) güzəştli kreditlərə tələb olunur.*

[6] *Kiçik həcmli (50 min manata qədər) güzəştli kreditlərə tələb olunmur.*

[7] *İstehsalı nəzərdə tutulmuş məhsulun (iş və xidmətin) satış qiyməti müəyyən edilərkən faktiki maya dəyəri, vergi qanunvericiliyi və bazar konyunkturası nəzərə alınmalıdır.*

## 8. İstehsal planı

İnvestisiya layihəsində istehsal planının hazırlanması məhsul (iş və xidmət) növü üzrə istehsalın təşkili prosesini, maddi-texniki təchizatını, istehsal prosesinin idarə olunmasını və istehsalla bağlı digər müvafiq məlumatları özündə əks etdirir.

İstehsal planında aşağıdakı məlumatlar verilməlidir:

1. Sahibkarlıq subyektinin mövcud istehsal imkanları;
2. İnvestisiya layihəsi üzrə istehsal gücü və nəzərdə tutulan istehsal həcmi;
3. Alınması nəzərdə tutulan xammal və materialların xarakteristikası və sərfiyyat normaları;
4. İstehsalın təhlükəsizliyi və ekoloji məsələlər;
5. Xərclərin (kommunal xərclər, əmək haqqı, sosial fondlar, amortizasiya, təmir xərcləri, əmlak vergisi, torpaq vergisi və s.) hesablanması;[8]
6. Məhsul vahidi üzrə maya dəyərinin hesablanması (kalkulyasiya).[8]

[8] *Xərclərlə bağlı hesablamalarda Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktları nəzərə alınmalı, istifadə olunan hər bir göstəricinin hesablanması mənbəyi aydın göstərilməlidir.*

## 9. Kreditə olan tələbat və onun ödənmə qrafiki

İnvestisiya layihəsi üzrə bu bölmənin yazılması xüsusi əhəmiyyət kəsb edir və layihənin reallaşdırılmasında kredit vəsaitinin əhəmiyyətini ifadə edir. İnvestisiya layihəsinin həyata keçirilməsi üçün sahibkarlıq subyektinin kreditə olan tələbatının əsaslandırılması, istifadəsi və qaytarılması ilə bağlı məlumatların əks olunduğu bu bölmə konkret olaraq kreditin təyinatını müəyyən edir.

Bölmə üzrə məlumatlar aşağıdakı ardıcıllıqla verilməlidir:

1. Kreditin ödənişi ilə bağlı güzəşt müddətinin müəyyən edilməsi məqsədilə layihə üzrə və əlavə mənbələr hesabına daxil olan pul vəsaitlərinin hərəkətinin təhlili;
2. Sahibkarlıq subyektinin kreditə olan tələbatının əsaslandırılması;
3. Kredit vəsaitinin təyinatı;
4. Ödəniş qrafiki.

## 10. Maliyyə Planı[9]

İnvestisiya layihəsinin maliyyə planı layihə üzrə pul vəsaitlərinin hərəkətini əks etdirməklə digər bölmələrdə verilən məlumatların ümumiləşdirilərək və onların dəyər (pul) ifadəsində təsvir edilməsinə xidmət edir. Bu bölmə sahibkarlıq subyektinin sərəncamında olan əsas və dövriyyə kapitalının pul ifadəsində əks etdirilməsi, kredit və öz vəsaitinin hərəkəti və layihə dövrü ərzində pul vəsaitlərinin dövriyyəsi ilə şərtlənir.

Maliyyə planı bölməsində aşağıdakı məlumatlar verilməlidir:

1. Daxil olan pul vəsaitlərinin xarakteristikası;
2. Xərclənən pul vəsaitlərinin xarakteristikası;
3. Mənfəət və zərərlər cədvəli

*(manatla)*

| ***S\s*** | ***Göstəricilər*** | ***Layihənin illəri*** | | |
|---|---|---|---|---|
| | | ***1*** | ***2*** | |
| **1.** | **Satışdan daxilolmalar (vergisiz)** | | | |
| **2.** | **Birbaşa xərclər** | | | |
| **3.** | **Ümumi mənfəət (1-2)** | | | |
| **4.** | **Digər gəlirlər** | | | |
| **5.** | **İnzibati xərclər** | | | |
| 5.1 | Əmək haqqı xərcləri | | | |
| 5.2 | DSMF ayırmaları | | | |
| 5.3 | Bank xidmət haqqı | | | |
| 5.4 | Amortizasiya ayırmaları | | | |
| 5.5 | Təmir-bərpa xərcləri | | | |
| 5.6 | Sığorta xərcləri | | | |
| 5.7 | Kommunal xərclər | | | |
| 5.8 | İcarə haqqı | | | |
| 5.9 | Rabitə xərcləri | | | |
| 5.10 | Nəqliyyat xərcləri | | | |
| 5.11 | Əmlak vergisi | | | |
| 5.12 | Torpaq vergisi | | | |
| 5.13 | Digər xərclər | | | |

[9] *Maliyyə planı bölməsi üzrə aparılan maliyyə hesablamalarında Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktları nəzərə alınmalı, istifadə olunan hər bir göstəricinin hesablanması mənbəyi aydın göstərilməli və hesablamalar üzrə proqnozlaşdırılan maliyyə nəticələrinin dürüstlüyü əsaslandırılmalıdır.*
*Excel hesablama da tələb olunur.*

| | | | | |
|---|---|---|---|---|
| **6.** | **Satış xərcləri** | | | |
| 6.1 | Reklam və marketinq xərcləri | | | |
| 6.2 | Ezamiyyə xərcləri | | | |
| 6.3 | Digər xərclər | | | |
| **7.** | **Sair xərclər** | | | |
| **8.** | **Kredit üzrə faiz məbləği** | | | |
| **9.** | **Vergiyə cəlb olunan məbləğ (3+4-5-6-7-8)** | | | |
| **10.** | **Vergi məbləği** | | | |
| **11.** | **Xalis mənfəət (9-10)** | | | |

4. Sahibkarlıq subyektinin proforma balansı

*(manatla)*

| **Göstəricilər** | **Layihənin illəri** | | |
|---|---|---|---|
| | **1** | **2** | |
| **Uzunmüddətli aktivlər** | | | |
| Əmlak və texnikalar | | | |
| Qurğu və avadanlıqlar | | | |
| Digər uzunmüddətli aktivlər | | | |
| **Qısamüddətli aktivlər** | | | |
| Xammal və mal-material | | | |
| Hazır məhsul | | | |
| Debitor borcları | | | |
| Nağd pul | | | |
| Digər aktivlər | | | |
| **Aktivlərin cəmi** | | | |
| **Kapital** | | | |
| Nizamnamə kapitalı | | | |
| Əlavə olunmuş kapital | | | |
| Bölüşdürülməmiş mənfəət | | | |
| **Öhdəliklər** | | | |
| Uzunmüddətli kreditor borcları | | | |
| Digər uzunmüddətli borclar | | | |
| Qısamüddətli kreditor borcları | | | |
| Digər qısamüddətli borclar | | | |
| **Kapital və öhdəliklərin cəmi** | | | |

5. Pul vəsaitinin hərəkəti cədvəli

*(manatla)*

| S\s | Göstəricilər | Layihənin illəri | | |
|---|---|---|---|---|
| | | 1 | 2 | |
| **1. Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | | | |
| 1.1 | Malların satışından və xidmətlərin göstərilməsindən daxilolmalar (vergisiz) | | | |
| 1.2 | Digər gəlirlərdən daxilolmalar | | | |
| 1.3 | Təchizatçılara ödənişlər | | | |
| 1.4 | Əmək haqqı və ona bərabər tutulan ödəmələr | | | |
| 1.5 | Mənfəət vergisi ödənişi | | | |
| 1.6 | Kreditin faiz ödənişləri | | | |
| 1.7 | Digər xərclər | | | |
| **2. Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** ((1.1+1.2) - (1.3+1.4+1.5+1.6+1.7)) | | | | |
| **3. İnvestisiya fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | | | |
| 3.1 | Daşınmaz əmlak, avadanlıq və digər uzunmüddətli aktivlərin satışından əldə olunan pul vəsaitlərinin daxilolması | | | |
| 3.2 | Daşınmaz əmlak, avadanlıq və digər uzunmüddətli aktivlərin əldə edilməsi üçün pul vəsaitlərinin xaricolması | | | |
| **4. İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** (3.1-3.2) | | | | |
| **5. Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti** | | | | |
| 5.1 | Şəxsi vəsait hesabına maliyyələşdirmə | | | |
| 5.2 | Kreditin alınması | | | |
| 5.3 | Digər daxilomalar | | | |
| 5.4 | Kreditin əsas vəsait üzrə ödənilməsi | | | |
| 5.5 | Digər xaricolmalar | | | |
| **6. Maliyyələşdirmə üzrə fəaliyyətdən yaranan pul vəsaitlərinin xalis hərəkəti** ((5.1+5.2+5.3) - (5.4+5.5)) | | | | |
| **Cari il üzrə pul axını** (2+4+6) | | | | |
| **Dövrün əvvəlinə qalıq** | | | | |
| **Dövrün sonuna qalıq** | | | | |

## 11. İnvestisiya layihəsinin səmərəliliyinin qiymətləndirilməsi[10] [11]

İnvestisiya layihələrinin səmərəliliyi zaman amili nəzərə alınmaqla qiymətləndirilir və investisiyanın, layihənin icra dövrü ərzində diskontlaşdırılmış xalis pul daxilolmalarının ümumi məbləği ilə müqayisəsinə əsaslanır. Pul daxilolmaları zamana görə bölüşdürüldüyündən kapitalın orta çəkili dəyəri ilə diskontlaşdırılır.

İnvestisiyanın səmərəliliyi qiymətləndirilərkən aşağıdakı göstəricilərin hesablanması zəruridir:

1. Şəxsi kapitalın dəyəri ($R_e$)[12] [13]

Hesablama üçün düstur: $R_e = R_f + \beta_l * MRP + CRP + SRP$

$$\beta_l = \beta_u (1 + (1 - Tc)\frac{D}{E})$$

$R_f$ – risksiz gəlirlilik dərəcəsi

$\beta_l$ – levered beta

MRP – bazar risk mükafatı (mənbə göstərilsin)

CRP – ölkə risk mükafatı (mənbə göstərilsin)

SRP – həcm risk mükafatı (mənbə göstərilsin)

$\beta_u$ – unlevered beta (mənbə göstərilsin)

Tc – mənfəət vergisi

D – borc kapitalının (kreditin) məbləği

E – şəxsi kapitalın məbləği

2. Diskont norması (r)[12] [13]

Hesablama üçün düstur: $r = \frac{E}{IC} * \mathrm{Re} + \frac{D}{IC} * Rd * (1 - Tc)$

IC- cəmi kapital qoyuluşu (investisiya) (E+D)

Re - şəxsi kapitalın dəyəri

Rd - borc kapitalının dəyəri (kreditin faktiki illik faiz dərəcəsi)

---

[10] *Kiçik həcmli (50 min manata qədər) güzəştli kreditlərə tələb olunmur.*
[11] *Excel hesablama da tələb olunur.*
[12] *Böyük həcmli (1 milyon manatdan yuxarı) güzəştli kreditlərə tələb olunur.*
[13] *Orta həcmli (50001 manatdan 1 milyon manata qədər) güzəştli kreditlərdə həssaslıq cədvəli əsasında hesablana bilər.*

3. Daxili rentabellik norması (IRR)

Hesablama üçün düstur: $$IC = \sum_{k=1}^{n} \frac{P_k}{(1+IRR)^k}$$

$P_k$ – layihə üzrə planlaşdırılan gəlir

k – layihənin ili

n – layihənin müddəti (illərin sayı)

4. Borc öhdəliyinin qarşılanması əmsalı (DSCR)

Hesablama üçün düstur: $$DSCR = \frac{EBITDA - Capex}{DS}$$

EBITDA – Gəlir (Faiz xərcləri, vergi və amortizasiyadan əvvəlki gəlir)

Capex – Cari kapital məsrəfləri

DS – Borc öhdəlikləri (Əsas borc + Faiz xərcləri)

5. Faiz xərcinin qarşılanması əmsalı (ICR)

Hesablama üçün düstur: $$ICR = \frac{EBITDA}{IE}$$

IE – Faiz xərcləri

6. Pul axınının diskontlaşdırılmış gəlirinin (PV) hesablanması

Hesablama üçün düstur: $$PV = \sum_{k=1}^{n} \frac{P_k}{(1+r)^k}$$

7. Xalis cari dəyərin (NPV) hesablanması

Hesablama üçün düstur: $$NPV = \sum_{k=1}^{n} \frac{P_k}{(1+r)^k} - IC$$

8. İnvestisiyanın özünü ödəmə müddətinin (PBP) hesablanması

Hesablama üçün düstur: $$PBP = \min n \sum_{k=1}^{n} P_k > IC$$

9. İnvestisiyanın diskontlaşdırılmış özünü ödəmə müddəti (DPBP)

Hesablama üçün düstur: $$DPBP = \min n \sum_{k=1}^{n} \frac{P_k}{(1+r)^k} > IC$$

## 12. Risklərin qiymətləndirilməsi

İnvestisiya layihəsində risklərin qiymətləndirilməsi layihənin reallaşdırılması mərhələlərində sahibkarlıq subyektinin qarşılaşa biləcəyi təhlükəli (riskli) halların nəzərə alınması, qabaqlayıcı tədbirlərin görülməsi və minimallaşdırılması istiqamətlərini nəzərdə tutur. Layihə dövrü ərzində risklər sahibkarlıq subyekti tərəfindən qruplaşdırılaraq qiymətləndirilməli və onların minimuma endirilməsi üçün tədbirlərin siyahısı hazırlanmalıdır.

İnvestisiya layihəsinin xarakterindən asılı olaraq risklər və onların təsirləri müəyyən edilməli, riskə qarşı görüləcək tədbirlər qeyd olunmalıdır.

| S/s | Risk növləri | Xarakterik risklər və təsirləri | Riskə qarşı tədbirlər |
|---|---|---|---|
| **1** | **Kredit riski** | | |
| **2** | **Bazar riski** | | |
| 2.1 | Faiz dərəcəsi riski | | |
| 2.2 | Valyuta riski | | |
| 2.3 | Kapital riski | | |
| 2.4 | Əmtəə riski | | |
| **3** | **Likvidlik riski** | | |
| **4** | **Əməliyyat riski** | | |
| 4.1 | İnsan resursu riski | | |
| 4.2 | İT riski | | |
| 4.3 | Hüquqi risk | | |
| 4.4 | Kənar risk | | |